YAP GƏNCLƏRİ:

# Ötən 23 ildə YAP Azərbaycan gəncliyinin inkişafı üçün misilsiz xidmətlər göstərib




Regionun ən güclü və nüfuzlu siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası (YAP) sıralarında cəmiyyətin bütün təbəqələrini təmsil edən insanları birləşdirir. Eyni zamanda, cəmiyyətin ən dinamik təbəqəsi kimi çıxış edən gənclərin əksəriyyəti YAP sıralarında təmsil olunur və ictimai-siyasi proseslərdə aktiv iştirak edirlər. Bunun başlıca səbəbi ölkəmizdə həyata keçirilən gənclər siyasətinə paralel olaraq YAP-ın Azərbaycan gəncliyinin inkişafına xüsusi diqqət yetirməsidir. Özündə yüksək intellektual potensialı birləşdirən YAP sıralarında gənclər böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir. Bu gün YAP üzvlərinin 40 faizə qədərini gənclər təşkil edir. YAP öz fəaliyyətində daim üzvlərinin rəy və təkliflərini nəzərə alır və demokratik idarəçilik prinsiplərini layiqincə tətbiq edir. Bu baxımdan, gənclərin düşüncə və ideyaları hər zaman diqqət mərkəzində saxlanılır. Gənclərin irəli sürdükləri layihələr mütəmadi olaraq öyrənilir, milli maraqlara uyğun olan və dövrümüzlə uzlaşan kreativ fikirlər praktikada uğurla reallaşdırılır. Bütün bunların həyata keçirilməsi üçün mütəmadi olaraq gənclərin fikirləri, təklif və tövsiyələri öyrənilir.

Bu gün gənclərin partiyaya axını onların ulu öndər Heydər Əliyevin ideyalarına sədaqətlərini, Prezident İlham Əliyevin siyasətinə inamlarını ifadə etməklə yanaşı, onlar YAP sıralarına qoşulmaqla öz potensiallarından səmərəli istifadə etmək, dövlətə, dövlətçiliyə xidmət göstərmək üçün böyük meydan əldə edirlər. Bunun həyata keçirilməsi üçün isə YAP rəhbərliyi gənclərin siyasi fəallığının artırılması, beynəlxalq əlaqələrinin genişləndirilməsi, ümumiyyətlə, ayrı-ayrı sahələr üzrə müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir.

YAP gəncləri onlara olan diqqət və qayğını yüksək qiymətləndirir və bu barədə fikirlərini "İki sahil"in oxucuları ilə bölüşürlər:

**YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin fəalı, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi Bakı Biznes Tədris Mərkəzinin şöbə müdiri Mehdi Namazov:** "Bizim müstəqil Azərbaycanın gələcəyi və Yeni Azərbaycan Partiyasının gələcəyi



gənclərə məxsusdur, gənclərin əlində olmalıdır." Bu dərin mahiyyətli fikir ümummilli lider Heydər Əliyevin Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümünə həsr olunmuş yığıncaqdakı nitqindən götürülüb. Belə yüksək keyfiyyətli fikrin təsdiqi olaraq, həqiqətən, Yeni Azərbaycan Partiyası yarandığı zamandan etibarən daim sıralarında sağlam əqidəli, vətənpərvər, Azərbaycanın parlaq gələcəyi naminə bilik və bacarıqlarını əsirgəməyəcək və ölkənin inkişafına öz zəkası ilə töhfə verə biləcək gəncləri birləşdirib. Ötən 23 il ərzində YAP Azərbaycan gəncliyinin inkişafı üçün misilsiz xidmətlər göstərib. Partiya savadlı və istedadlı gənclərin nailiyyətlər əldə etməsinə hər zaman böyük imkanlar yaradıb. Bu isə ölkənin aktiv qüvvəsinin - gənclər təbəqəsinin böyük çətinlikləri asanlıqla aşmasına səbəb olub.

Bu gün ölkəmizin Prezidenti, YAP-ın Sədri cənab İlham Əliyev də azərbaycanlı gənclərin hərtərəfli inkişaf etməsi üçün mühüm addımlar atmaqdadır. Möhtərəm Prezidentimizin, eyni zamanda, Yeni Azərbaycan Partiyasına Sədrlik etməsi öz ölkəsinə qəlbən bağlı, normal düşüncəli və yüksək intellektli gənclərin sözügedən siyasi təşkilata böyük axını ilə nəticələnir. Bu axın isə gənclərin dövlətimizin daha da qüdrətlənməsi naminə cənab İlham Əliyevin ətrafında sıx, yumruq kimi birləşdiyini və müdrik siyasi kursa sadiqliyini nümayiş etdirir. Həmçinin partiya tərəfindən bilikli, dövlətini sevən, yüksək liderlik və idarəçilik qabiliyyətlərinə malik gənclərə böyük etimadın göstərilməsi, onların istər dövlət qulluğunda vəzifə tutması, istərsə də parlament və bələdiyyə seçkilərində namizəd olaraq irəli sürülməsi ümumən Azərbaycan gəncliyində özünə inamı daha da artırır. Beləliklə, YAP biz gənclərlə bağlı öz əməli fəaliyyətində həmişə Ulu Öndərimizin banisi olduğu gənclər siyasətini yaşatdığını açıq-aşkar sübuta yetirmişdir."

**YAP İsmayıllı rayon təşkilatı Gənclər Birliyinin üzvü Gülnarə Mirzəliyeva:** "Xalqımızın milli maraqlarını ifadə edən, vahid və avanqard siyasi qüvvəyə çevrilmiş Yeni Azərbaycan Partiyası təkcə ölkəmizin deyil, həm də regionun ən mütəşəkkil və güclü siyasi təşkilatı kimi birmənalı şəkildə qəbul edilir.



Ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə inkişaf yolunda inamla irəliləyir. Ölkənin ümummilli siyasi iradəsinə sadiq, onun maraqlarına xidmət edən və ən əsası yeni dönəmdə siyasi fundamental bazanın təminini labüd sayan təcrübəli lider olan ulu öndər Heydər Əliyev gənclərin yetişdirilməsi və ümumi fəaliyyətə cəlb edilməsini dövlətin əsas prioriteti kimi daim irəli sürürdü. Məhz o dövrkü siyasətin məntiqi nəticəsidir ki, bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclərin intellektual səviyyəsinin, peşə hazırlığının yüksəldilməsi üçün müxtəlif tədbirlər görülür. İnnovativ və sosial-ictimai layihələrin icrasına məhz gənclər cəlb edilir. Gənclər həm də dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər.

Özünəməxsus siyasi ənənəsi olan YAP Gənclər Birliyi Azərbaycanın ictimai-siyasi həyatında fəaliyyət göstərən gənclər təşkilatlarının bayraqdarıdır. Respublikanın bütün bölgələrində, o cümlədən İsmayıllıda da YAP rayon təşkilatının Gənclər Birliyi gənclərin milli ruhda tərbiyələndirilməsində, zəngin tarixi və mədəni irsin qorunmasında və eyni zamanda, intellektual cəmiyyətin formalaşmasında əsaslı rol oynayır. Bu mənada, partiyanın gənclər qurumunu digər gənclər təşkilatlarından daha fəal mövqedə görürük.

Son illərdə partiyamızın Gənclər Birliyi xüsusi aktuallıq daşıyan yeni ictimai və sosial layihələr həyata keçirir. Bu layihələrin predmeti gənclərin inkişafı ilə bağlı olduğundan belə layihələrin davamlı olmasında daha çox maraqlı tərəf də məhz gənclərdir. Rayonda aparılan gənclər siyasətinin uğuru kimi, İsmayıllının 2015-ci il üçün Azərbaycanın "Gənclər paytaxtı" seçilməsini göstərmək olar.

Təbii ki, rayonun "Gənclər paytaxtı" seçilməsi nə qədər böyük etimaddan xəbər versə də, bir o qədər məsuliyyəti artırırdı. Rayonda böyük rəğbət qazanan YAP rayon təşkilatının builki uğurlu fəaliyyəti ilə göstərilən etimadı tam doğrultdu. Dövlətin gənclər siyasətində maraqlarını əks etdirən ən incə məqamlar belə ümumi fəaliyyətdə nəzərə alınaraq, ərsəyə gətirilən çoxsaylı layihələrdə özünü büruzə verirdi.

Bəli, əminliklə deyə bilərik ki, bü gün YAP ümummilli lider Heydər Əliyev ideyalarına sadiq olan və gəncləri ümumi məqsəd naminə birləşdirən nüfuzlu bir təşkilatdır."

**YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyinin üzvü Leyla Kərimova:** "Deyirlər, gənclik yeni nəsil deməkdir. Kökünə bağlı, əcdadının yolu ilə gedən, milli, mənəvi dəyərlərinə sadiq, əyilməz, alnıaçıq, həm də tükənməz gücdür. Hər zaman cəmiyyətimizin avanqard simaları olan gənclərimiz hər yerdə layiqli yer tutublar. Təbii ki, bütün bunların əsasında dövlətimizin gənclərə yaratdığı imkanlar və diqqət dayanır. Təsadüfi deyil ki, bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu öndər Heydər Əliyevin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Əsası Ulu Öndərimiz tərəfindən qoyulan Yeni Azərbaycan Partiyasının yaranmasından 23 il ötür və 23 yaşını qeyd edən partiyamızın sırasında olduğum üçün qürur hissi keçirir və partiyamızın Sədri cənab İlham Əliyev başda olmaqla bütün üzvlərimizi təbrik edir, hər zaman öndə olmağı diləyirəm."



**YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin üzvü, Azərbaycan Dillər Universitetinin Filologiya və jurnalistika fakültəsinin IV kurs tələbəsi Gülnar Quliyeva:** "Öz fəaliyyətini xalqın iradəsi əsasında davam etdirən Yeni Azərbaycan Partiyasında təmsil olunmaq isə çox böyük şərəf və məsuliyyətdir. Partiyamızın inkişafında ölkə əhalisinin ən fəal təbəqəsini təşkil edən gənclərin özünəməxsus yer tutması, eləcə də diqqət və qayğı ilə əhatə olunmuş gənclərin YAP-ın qüdrətinin və gücünün əhəmiyyətli dayaqlarından birinə çevrilməsi, ümummilli lider Heydər Əliyevin dediyi "Gənclər bizim partiyamızın sıralarında xüsusi qayğıya malik olmalıdırlar" fikrinin gerçəkliyə çevrilməsinin təsdiqidir. Nəticə etibarilə, ümummilli lider Heydər Əliyevin ideyaları əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının milli maraqlara əsaslanan siyasət həyata keçirməsi, gənclərə xüsusi diqqət və qayğı göstərməsi və digər pozitiv məqamlar gənclərin YAP-a üz tutmasını şərtləndirir."



**Ceyhun Piriyev,**
***"İki sahil"***